**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**NİHAT BÜYÜKBAŞ**

# TÜRK ORTA MƏKTƏBLƏRİNDƏ TARİXIN ÖYRƏNİLMƏSİ MƏSƏLƏLƏRİ (AZƏRBAYCAN VƏ TÜRKİYƏ NÜMUNƏSİ ÜZRƏ)

**İxtisas: 5502.01 – Ümumi tarix;**
**5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları**

**Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**Bakı – 2018**

*Dissertasiya AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Respublikasının tarixi" şöbəsində yerinə yetirilmişdir*

**Elmi rəhbər:**
AMEA-nın həqiqi üzvü,
Əməkdar elm xadimi,
Dövlət Mükafatı laureatı **Y.M.Mahmudov**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru **T.H.Nəcəfli**
Pedaqoqika üzrə elmlər doktoru **F.A.Rüstəmov**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5502.01 – "Ümumi tarix", 5503.02 – "Vətən tarixi", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "_____" "___________" 2018-ci il iclasında, saat _____ keçiriləcəkdir.

Ünvan: AZ1143, Azərbaycan Respublikası, Bakı ş., H.Cavid pr., 115.

Dissertasiya ilə AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "____" ___________2018-ci il tarixdə göndərilmişdir.

D.01.161 Dissertasiya Şurasının Elmi
katibi, tarix üzrə fəlsəfə doktoru, dosent **C.Ə.Bəhramov**

# I. IDİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Türk xalqlarının öz müstəqilliyinə qovuşmaqda olduğu müasir mərhələdə həmin ölkələrin orta məktəblərində tarix fənninin necə öyrədilməsi gənc nəsildə milli şüurun formalaşmasına həlledici təsir göstərən amillərdəndir. Uzun zaman həm çar Rusiyasında, həm də sovet-bolşevik rejiminin hökmranlığı dövründə türk xalqlarının tarixinin yaddaşlardan silinməsi siyasəti yeridildiyi üçün öz müstəqilliyinə qovuşmuş türkdilli respublikalarda tədris prosesində bu mühüm amilin rolu mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, Cümhuriyyət dönəmində Türkiyənin orta məktəbləri də tarix tədrisi sahəsində Qərbin, xüsusən Fransa təhsil sisteminin ciddi təsirinə məruz qalmışdır. Tarixən qısa müddət ərzində Azərbaycan orta məktəblərində tarix tədrisində mühüm uğurlar qazanılmış, keçmişin zərərli konsepsiyalarından təmizlənmiş yeni tarix dərslikləri yaradılmışdır. Azərbaycan təcrübəsi göstərir ki, türk dövlətləri arasında tarix tədrisi sahəsində də təhsil əlaqələrinin genişləndirilməsinə, bu sahədə hamı üçün məqbul olan vahid sistemə keçilməsinə böyük ehtiyac vardır. Azərbaycan və Türkiyə nümunəsi əsasında aparılan həmin tədqiqatın aktuallığı da, başlıca olaraq, məhz bununla bağlıdır.

Tarixdən məlumdur ki, türk dövlətləri bir çox hallarda dövrün şərtlərindən irəli gələn konfliktlər və müharibələr nəticəsində bir-birindən uzaq düşmüş, bəzi hallarda rəqib dövlətlərə çevrilmişlər. Təəssüf ki, indiki türk dövlətlərinin əksəriyyətində (Azərbaycan Respublikası istisna olunmaqla) bir-birindən uzaqlaşmanı o dövrün şərtləri çərçivəsində qiymətləndirmək, yeni nəslin düşüncəsində düzgün fikirlər formalaşdırmaq əvəzinə, tədris vasitəsilə hələ də düşmənçilik psixologiyası yaradılmaqda və bu düşüncələr gələcəyə daşınmaqdadır. Bu baxımdan, türklər arasında uzaqlaşmaya və qarşıdurmaya səbəb olan təlqinin, təlimin, tədrisin və yazılı qaynaqların araşdırılıb ortaya qoyulmasına, insanların idrakını inkişaf etdirərək dünyada müxtəlif cəmiyyətlər halında yaşayan türklərin ortaq bir tarix şüuruna və anlayışına yönəldilməsinə böyük ehtiyac vardır. Bu ehtiyac araşdırılan mövzunu aktual edən əsas səbəblərdən biridir

Dissertasiya işi türk dünyasının qədim zamanlardan müasir dövrə qədərki tarixinin tədrisi vəziyyətini aydınlaşdırmaq, orta məktəb proqramlarında onların necə əks olunduğunu müəyyənləşdirmək və türk dünyasında tarixi həqiqətləri dərk edən bir nəsil yetişdirilməsi nöqteyi-

nəzərindən mühüm əhəmiyyət kəsb edir.

2014-cü ilin iyun ayının 5-də Türkiyədə keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv olan dövlətlərin Xarici İşlər Nazirlərinin Dördüncü Zirvə Toplantısının qəbul etdiyi bəyannamənin "İctimai və humanitar əlaqələr sahəsində əməkdaşlıq" başlıqlı 33-cü maddəsində ortaq türk tarixi və ədəbiyyatı üzrə dərs kitabları hazırlanmasının vacibliyi bildirilmişdir.[1] Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv olan dövlətlərin Təhsil Nazirlərinin üçüncü görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası"nın əhəmiyyəti, ortaq tarix, dil, din və mədəni irsin mövcudluğu qeyd edilmiş, Strategiyanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin qarşılıqlı maraq doğuran məsələlər və təhsil sahəsində əməkdaşlığına geniş imkanlar yaratdığı vurgulanmışdır.[2] Bu görüşdə iştirak edən Türkiyə Respublikası Milli Təhsil Naziri Nəbi Avcı 2014-ci il 28 noyabr tarixli şərhində Milli Təhsil Nazirliyinin "Ortaq Türk Tarixi" dərsinin seçiləcəyini, daha sonra məcburi olaraq tədris ediləcəyini və bu dərsin programının tərtib ediləcəyini qeyd etmişdir. Nəbi Avcının "Ortaq Türk Tarixi"nin zəruriliyini vurğulaması, Türkiyə Cümhuriyyəti Atatürk Araşdırma Mərkəzi və Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu arasında hələ 2013-cü ilin aprel ayında "Ortaq Türk Tarixi" protokolunun imzalanması və hər iki tərəfin ciddi şəkildə çalışmalara davam etdiyi "Ortaq Türk Tarix"inin yazılması və bunların orta məktəb dərsliklərində əks olunması mövzunun aktual olduğunu bir daha təsdiq edir.

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu ilə Türkiyə Cümhuriyyəti Atatürk Araşdırma Mərkəzi arasında 2013-ci ilin aprel ayında imzalan bir protokol ilə başlayan "Ortaq Türk Tarixi"nin yazılmasının ilk mərhələsi olan "Türk dövlətləri" və "Türk məşhurları" kitablarının hazırlanması problemin dissertasiya mövzusu kimi araşdırılmasına da ehtiyac yaratmış oldu. Türk dünyası fərqli coğrafiyalarda yerləşsə də, eyni soya və ortaq tarixə mənsub olan türk dövlətlərindən iba-

---

[1] Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dördüncü Zirvə Toplantısının Bəyannaməsi // http://www.e-qanun.az/framework/28454

[2] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin təhsil nazirlərinin üçüncü görüşünün iştirakçılarına müraciəti // Azərbaycan, 29 noyabr 2014.

rətdir.Hesab edirik ki, tarixin müxtəlif zaman kəsiklərində qurulan türk dövlətlərinin, xanədanlarının başçıları bəzi anlaşılmazlıqlar və ya hər hansı xarici təsirdən həmin dövlətlərin xalqlarını ayrı bir millət olaraq görmüşlər. Bu səbəblər, qarşıdurma sahələri araşdırılıb ortaya qoyulmalı, elmi metodlarla təhlil edilməlidir.

Dissertasiya işinin AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu ilə Atatürk Araşdırma Mərkəzinin "Türk dövlətləri" və "Türk məşhurları" kitablarının hazırlanması ilə eyni zamanda yazılması "Ortaq türk tarixi"-nin yazılması prosesində tarix elminə lazımi dəstəyi təmin etmiş olur. Hər iki tədqiqat digər türk respublikalarının da ortaq türk tarixi dərsliklərinin tədris planının hazırlanmasına, ortaq türk tarixi ilə bağlı baxışın formalaşdırılmasına xidmət edəcəkdir.

Dissertasiya işində orta məktəb səviyyəsini tədqiqat mövzusu kimi seçməyimizin əsas səbəbi bütün inkişaf etmiş ölkələrdə orta təhsil (orta məktəb, lisey) səviyyəsində şagirdlərə tarixin tədris edilməsinə və onların tarixi şüurunun daha yüksək səviyyədə formalaşdırılmasına məhz orta məktəb və lisey dövründən başlanmasıdır.

Müasir dövrdə, xüsusilə də, eyni dinə mənsub xalqların məzhəb ayrı-seçkiliyi ilə bölünmələri, qarşıdurmaların, hətta mübahisəli məsələlərin müharibə səviyyəsinə çatdırılması səbəblərinin araşdırılması tarixin hansı səviyyədə yazılması, tədrisi və yeni nəslə çatdırılmasından bilavasitə asılıdır.

Əsas problemlərdən biri də, tarixçilərin bəzi hallarda bu qarşıdurmaların doğru və həqiqi hədəfini əks etdirmək əvəzinə, xarici ölkə tarixçilərinin təsiri ilə qarşılıqlı ziddiyyyətləri uzun illər boyu təhrikçilik tərzində ortaya qoymalarıdır. Tariximizdə parçalanma və qarşıdurma mövzusu olan bir sıra hadisələrin milli xüsusiyyətlər nəzərə alınmadan qərb tarixçilərinin konsepsiyasına uyğun şəkildə yazılması və qərbin tədris metodları ilə tədrisinə çalışılması kimi ziddiyyətlər mövcuddur və bunlar mütləq aradan qaldırılmalıdır.

Tarix fənninin tədrisinin professional tarixçilər tərəfindən həyata keçirilməməsəi də ölkəmizin təhsil sisteminə mənfi təsir göstərmişdir. Belə ki, təhsil sahəsində tədrisi asanlaşdıran, tarixi öyrədən tədris metodları ilə tarix tədrisi inteqrasiya edilə bilməmiş, fərddə maraq oyandıran, öyrənməyi təşviq edən proseslərin yerinə test suallarını həll etməyə istiqamətləndirilən əzbərləyici üsullar təhsilin yeganə vasitəsi olmuşdur.

Dissertasiya işi türklərin real tarixlərini yeni nəsillərə çatdırmaqda, istər yazma metoduna, istərsə də araşdırma prosesinə görə iki ölkənin

nümunəsində həyata keçirilən ilk tədqiqat işidir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqat işinin mövzu dairəsi 1917-2016-ci illəri əhatə edir. XX əsrin əvvəlləri hadisələrin zənginliyi və mürəkkəbliyi baxımından həm Türkiyə, həm də Azərbaycan üçün mühüm bir dövr olmuşdur. Bu dövrdə hər iki ölkənin xalqı istiqlal mübarizəsi aparmış, mübarizənin nəticəsi olaraq Cümhuriyyət qura bilmişdir. Türkiyə Cümhuriyyəti yaşasa da, Azərbaycan Xalq Cümhuriyyəti bolşevik işğalı nəticəsində süqut etdi və respublikada sovet hakimiyyəti quruldu, ölkə formal olaraq müstəqil republika kimi SSRİ-nin tərkibinə daxil edildi. Hər iki ölkə öz təhsil-tədris sistemini formalaşdırdı. Türkiyə Cümhuriyyəti orta məktəblərdə öz tarixini tədris etməyə başladı. Azərbaycanda isə sovet dövründə SSRİ tarixi adı altında faktiki olaraq Rusiya tarixi tədris edilməyə başladı. Nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi, təhsil qanunu qəbul olundu. Orta təhsil məktəblərində Vətən tarixi tədris edilməyə başladı.

Göstərilən xronoloji çərçivədə Türkiyə və Azərbaycandakı təlimlərdən istifadə edilərək tarix fənninin tədris tarixi, inkişafı, bu elm sahəsinin yaranması, gənc nəsillərə çatdırılma vasitələri, təlimdə tətbiq edilən metodlar, hər iki ölkənin tarix fənni üzrə dərs proqramları araşdırılmış, məktəblərdə keçirilən tarix dərslərinin mahiyyəti təhlil edilmişdir. Eyni zamanda, dissertasiya işində tarix dərslərinin həftəlik dərs yükü, keyfiyyəti, ortaq tarixi şəxsiyyətlər haqqında məlumatların tarixçilər tərəfindən şagirdlərə çatdırılma formalarının tədris proqramlarında və dərsliklərdə əks olunması bir neçə nümunədə müqayisə olunmuşdur. Gənc nəsillərdə tarixi şüurun formalaşdırılması bütün dünyada əsasən orta məktəb yaşlarından başlanır. Bu səbəbdən də dissertasiya işində orta təhsil pilləsindəki təlimlər Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikasının nümunələrində araşdırmaya cəlb edilmişdir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikasının orta təhsil müəssisələrində tarix fənninin tədrisinin müqayisəli araşdırılması indiyədək tədqiqat mövzusu olmamışdır. Ancaq, Azərbaycanda da, Türkiyədə də tarix fənninin tədrisi, tarix dərsliklərinin yazılması sahələrinə həsr olunmuş ayrı-ayrı araşdırmalar aparılmışdır. Belə ki, hər iki ölkənin təhsil sistemi, tarix fənninin tədrisi ilə əlaqədar magistr və dissertasiya işləri səviyyəsində tədqiqat işləri aparılmış, əldə edilən nəticələr təhlil edilmişdir.

Sovet dövründə Azərbaycanda tarixin tədrisi problemi bir çox alimlər tərəfindən araşdırılmışdır. Bunların içərisində M.Mehdizadənin,

T.Musayevanın, H.Əhmədovun, M.Salahovun əsərlərini xüsusi qeyd etmək lazımdır.[1]

Elnur Ağayevin "Sovet ideologiyası çərçivəsində türk respublikalarında tarixin yazılması və tarixin tədrisi" adlı namizədlik dissertasiyası bu sahədə yazılmış mühüm tədqiqat işlərindən biridir.[2] Bu dissertasiya işi sovet dövründə türk respublikalarında tarix fənninin tədrisi vasitəsilə sovet ideologiyasının formalaşdırılmasının öyrənilməsi baxımından çox əhəmiyyətli bir araşdırmadır. Elnur Ağayevin dissertasiya işində sovet imperiyasının tarix fənnindən təsirli bir silah kimi istifadə edə-rək, xüsusilə də türk respublikalarında yaşayan millətlərin şüurunu marksizm ideologiyası vasitəsi ilə dəyişdirmək səyinin bütün çılpaqlığı ilə ortaya qoyulması mövzunun öyrənilmə səviyyəsi baxımından çox əhəmiyyətlidir.

Elnur Ağayevin "Sovet ideologiyası işığında Azərbaycanda rəsmi tarix araşdırmaları",[3] İntiqam Cəbrayılovun "Azərbaycan tarixinin tədrisi metodikası",[4] Oqtay Əfəndiyevin "Orta əsrlər tarixinin bəzi problemləri və onların dərsliklərdə əksi haqqında düşüncələr",[5] Hüsaməddin Məm-

---

[1] Мехти-заде М. Борьба за советскую школу в Азербайджане в период гражданской войны и иностранной интервенции (1917-1920 гг.) // Советская педагогика, 1955, №6, с. 76-85; Мусаева Т.А. Революция и народное образование в Азербайджане. Баку: 1979; Əhmədov H., Əfəndiyev S. 150 yaşlı yubilyar məktəb və Şəkidə xalq maarifinin tərəqqisi. Bakı: 1983; Ağayev Ə. 150 yaşlı Şuşa məktəbi. Bakı: 1982; Мехти-заде М., Аллахвердиев Т., Алиев К. Расцвет народного образования в Азербайджане. Баку: 1980; Развитие высшей школы в Советском Азербайджане. Баку: 1984; Салахов М.Н. Высшее образование в Азербайджане: история, проблемы, перспективы. Баку: 1990.

[2] Ağayev E. Sovyet İdeolojisi Çerçevesinde Türk Cumhuriyetlerinin Tarih Yazımı ve Tarih Eğitimi: Azerbaycan Örneği, Basılmamış Doktora Tezi, Hacetepe Üniversitesi, Ankara: 2006, 275 s.

[3] Ağaoğlu E. Sovyet ideolojisi Isığında Azerbaycan'da Resmi Tarih Tezi // Yeni Türkiye, c. 4, sayı: 46 (Temmuz-Ağustos 2002), s. 391-412.

[4] Cəbrayılov İ. Azərbaycan tarixinin tədrisi metodikası. Azərbaycan Respublikası Təhsil Nazirlıyı Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu Yayınları, Bakı: Mütərcim, 2006, s.14, 21.

[5] Əfəndiyev O. Orta əsrlər tarixinin bəzi problemləri və onların dərsliklərdə əksi haqqında düşüncələr", the Conference, the Problems of Azerbaican History and Their Reflection in Modem Textbooks and Research Literature. Bakı, 1995, s.72.

mədovun (Qaramanlı) "Azərbaycanda şablon tarix tədrisi və mübarizə yolları",[1] Mehmet Alparqunun "Türkiyə və Azərbaycan tarix dərs kitabları üzərində bəzi müşahidələr",[2] T.F.İsgəndərovun "Azərbaycan SSR-də birinci dərəcəli məktəblərin tarix-içtimaiyyət proqramlarına dair (1920-1927)"[3] adlı əsərlərində tədqiq olunan mövzunun ayrı-ayrı məsələləri işıqlandırılmışdır. Qeyd edilən tədqiqat işlərinin çar Rusiyasının, daha sonra SSRİ-nin türk dünyasında tarixin tədris edilməsinə təsirləri, türk dövlətlərində, xüsusilə də Azərbaycanda, müstəqillik dövründə tarix fənninin tədrisinin əsaslarının, tədrisdə tətbiq edilən fərqli cəhətlərin öyrənilməsində və müqayisəli təhlil edilməsində xüsusi əhəmiyyəti vardır. Fuad Hacısalehoğlunun "Azərbaycanda milli tarixin yazılması"[4] mövzusunda məqaləsi və Suavi Aydının "Mədəniyyət-şəxsiyyət modelləri baxımından türk tarixinin yazılması"[5] adlı dissertasiyası Türkiyə və Azərbaycanda türk tarixinin yazılması sahəsində aparılan tədqiqatlar üçün əsas əsırlərdəndir.

Rəfiq Turanın "Azərbaycanda ibtidai və orta məktəblərdə tarix tədrisi və tarix dərs kitabları (Sovet dövründən müstəqil Azərbaycan Respublikasınadək)"[6] mövzusundakı dissertasiya işi 1990-cı illərdə müstəqillik qazandıqdan sonra türk respublikalarının tədqiqatçıları tərəfindən yeni öyrənilməyə başlanılan türk tarixi kimi səciyyələndirilməsi baxı-

---

[1] Memmedov (Karamanlı) H. Azerbaycan'da Basmakalıp Tarih Eğitimi ve Mücadele Yollar // Tarih Eğitimi ve Tarihte "Öteki" Sorunu, 2, Uluslararası Tarih Kongresi Tebliğler, Tarih Vakfı Yurt Yayınları, 2. Baskı, İstanbul: 1998, 265 s.

[2] Alpargu M. Türkiye ve Azerbaycan Tarih Ders Kitapları Üzerine Bazı Gözlemler// Atatürk Dergisi, Erzurum, c: V/3, Ocak 2007, ss. 1-13.

[3] İsgəndərov T.F. Azərbaycan SSR-də birinci dərəcəli məktəblərin tarix-ictimaiyyət proqramlarına dair 1920-1927 // Elmi Əsərlər: Pedagoji, psixoloji və fənlərin tədrisi metodikası, Azərbaycan Dövlət Pedaqoji İnstitutu Nəşri, Seriya 11, No:1, Bakı: 1976, s. 80-87.

[4] Hacısalihoğlu F. Azerbaycan'da Ulusal Tarih Yazımı, Uluslararası Tarih araştırmaları Dergisi, Prof. Dr. Enver Konukçu Armağanı. Ankara: 2012, s.173-194.

[5] Aydın S. Kültür-Kimlik Modelleri Açısından Türk Tarih Yazımı. Hacetepe Üniversitesi Sosyal Bilimler Enstitüsü (Yayımlanmamış Doktora Tezi). Ankara: 1997, s.244-248.

[6] Turan R. Azerbaycan'da İlk ve Ortaöğretimde Tarih öğretimi ve Tarih Ders Kitapları (Sovyet Döneminden Bağımsız Azerbaycan Cumhuriyetine). Ankara: Atatürk Araştırma Merkezi Yayını, 2015, 499 s.

mından əhəmiyyətlidir. Bu dissertasiya işi müəllifin Türkiyədə əldə etdiyi bir sıra əsərlər vasitəsilə gəldiyi qənaətin nəticəsidir. Tədqiqat işi Sovet İttifaqının süqutundan sonra Türkiyənin Azərbaycanda tarix tədrisinə baxışının öyrənilməsinə bir töhfədir.

1991-ci ildə Azərbaycan müstəqillik qazandıqdan sonra ölkədə tarixin tədrisinə daha çox diqqət yetirilməyə başlandı. Azərbaycanda bu sahədə elmi-tədqiqat işləri 1990-cı illərdən sonra yeni səpkidə yazılıb.[1]

Türkiyədə, xüsusilə 1920-ci illərdən sonra yeni Türkiyə Respublikasının təşəkkülü və Atatürkün Türk Tarix Qurumunu quraraq, bu sahəyə şəxsən maraq göstərməsi ilə əlaqədar olaraq tarixin tədrisi və öyrənilməsi ilə bağlı xeyli sayda araşdırmaların aparıldığını və elmi işlərin yazıldığını görürük. Bu tədqiqat əsərlərinin hamısını araşdırma imkanımız olmadığından, dissertasiya işində mövzumuzla əlaqədar olan orta təhsil müəssisələrində tarixin tədrisinə dair yazılan bütün nəşrlər tədqiqata cəlb edilmişdir.

1932-ci ildə şəxsən Atatürkün himayəsi və nəzarəti altında həyata keçirilən I Türk Tarix Konqresinin protokolları mövzunun araşdırılması zamanı xüsusi əhəmiyyət daşıyan sənədlərdəndir. Bu sənədlər və konfransda müzakirə edilən məsələlər Türkiyə Respublikasında tarixin tədrisinin təməl fəlsəfəsini başa düşməyə imkan verir. Çünki yeni qurulan Türkiyə Respublikasının bütün tarixçiləri bu konqresə toplaşmışdılar və burada iştirak edən tarixçilərin hamısı Osmanlı dövlətinin tarixçiləri idilər. Konqresin protokolları aparılan bütün müzakirələrin, onun elmi səviyyəsinin ortaya çıxmasına və öyrənilməsinə şərait yaratmış oldu. Nevzat Kökenin "Respublika dövrü tarix anlayışları və tarix tədrisi (1923-1960)"[2] mövzusuna həsr edilmiş dissertasiya işi 1923-1960-cı illərin ən yaxşı araşdırma, tədqiqat və tənqidi yanaşma ilə təqdim edilməsi nöqteyi-nəzərindən əhəmiyyətli bir tədqiqat işdir. N.Kökenin bu dissertasiya işi Osmanlı dövlətindən respublika quruluşuna gedən yolda fransız tarixçiliyinin "Osmanlı tarixi" anlayışının meydana gəlməsinə təsiri, bu təsirin respublikanın quruluşunda da əks olunması, milli tarixçiliyimizin meydana gəlməsinə maneə törətməsinin fəlsəfi əsaslarını müəyyən edir.

---

[1] Назарли А. Народное образование в Азербайджанской Республике (1918-1920 гг.) Баку: 2008, с. 224; Доклады Второй Республиканской Научной конференции молодых исследователей проблем истории Азербайджана. Баку: 1992.

[2] Köken N. Cumhuriyet Dönemi Tarih Anlayışları ve Tarih Eğitimi (1923-1960). Ankara: Atatürk Araştırma Merkezi Yayını, 2014, 364 s.

Osmanlı dövlətinin son dövrü ilə Türkiyə Respublikasının Atatürk dövrünün tarix anlayışına dair Yusif Akçuranın, Yəhya Akyüzün, Erdal Aslanın, İsmayıl Haqqı Dəmircioğlunun əsərləri, bu sahədə yazılan və mövzunun öyrənilmə səviyyəsinə müsbət təsir göstərən tədqiqat əsərlərindəndir.[1]

İstifadə edilən tədqiqat əsərlərinin bir hissəsi isə həm Osmanlı, həm də Türkiyə Respublikası dövrünündə türk dünyasının tarix yazma, anlama və yeni nəsillərə izah etmə üsullarının, tarix fənninin tədrisinə xarici təsirlərin öyrənilməsini təmin etmişdir.

Dissertasiyada Azərbaycanda və Türkiyədə orta təhsil müəssisələrində tədris edilən tarix dərsliklərinin keyfiyyəti, bu dərsliklərin tədris edilməsinin məqsədi, dərs saatları, tarix dərslərinin şagirdlərdə münasibət, davranış və tarixi şüurun formalaşdırılmasındakı rolu və tədrisinin mövcud vəziyyəti araşdırılmışdır.

Tədqiqat işində Azərbaycanda 8, 9 və 11-ci siniflərdə tədris olunan Azərbaycan tarixinə dair dərs kitablarındakı mövzu, onun tədris müddəti və türklərin tarixinə ayırdıqları yer ətraflı şəkildə təhlil edilmiş, Türkiyə orta məktəblərində tədris olunan tarix dərsləri ilə müqayisə edilmişdir. Dissertasiyada hər iki ölkənin milli tarixinə verilən əhəmiyyət barədə də paralellər aparılmışdır.

Azərbaycanda tarix dərsləri orta təhsil məktəblərində keçirildiyindən, orta məktəb və liseylərdə tədris olunan tarix dərslikləri, dərs vəsait-

---

[1] Akçura Y.I. Türk tarih Kongresi, Ülkü, Şubat 1932; yenə onun: Tarih Yazmak ve Tarih Okutmak Usullerine Dair. I. Türk Tarih Kongresi, Konferans Müzakere Zabıtları. Ankara: TTK, 2010; Akyüz Yahya. Türk Eğitim Tarihi (Başlangıçtan 1988'e) // Ankara Üniversitesi Eğitim Bilimleri Fakültesi Yayınları No:160, Ankara: 1989; yenə onun: Türk Eğitim Tarihi (M.Ö. 1000 - M.S. 2004), Gözden Geçirilmiş 9. Baskı. Ankara: 2004; Aslan E. Türkiye Cumhuriyeti'nin İlk Ders Kitapları // Eğitim ve Bilim, 35, (158). İzmir: 1995; yenə onun: Atatürk Döneminde Tarih Eğitimi- I: "Türk Tarih Tezi" Öncesi Dönem (1923-1931), Eğitim ve Bilim, Sayı: 164, İzmir 2012, s.331-346; Demircioglu İ.H. Türkiye'de Tarih Eğitiminin Tarihi, Türkiye Araştırmaları Literatür Dergisi, Sayı 12, Ankara: 2008; yenə onun: Tarih Öğretmenlerinin Tarihsel Düşünme Becerilerine Yönelik Görüşleri, Millî Eğitim, S. 184, Güz, Ankara: 2009.

ləri sovet dövrü və müstəqillik illəri üzrə araşdırılmışdır.[1] Türkiyədə isə orta məktəbin 4-cü sinfində keçirilən "Atatürk prinsipləri və inqilab tarixi" dərsi ilə liseylərdə tədris olunan tarix dərslərinin proqramı dərs kitablarında Osmanlı və Respublika dövrləri üzrə araşdırılmışdır. Azərbaycan və Türkiyə orta məktəblərində tədris edilən tarix dərslərinin tədris proqramlarında və dərsliklərində türk dövlətlərinin tarixinin, ortaq tarixi şəxsiyyətlərinin və türklər arasındakı hadisələrin yeni nəsilə çatdırılma formaları araşdırılmış, bir tərəfdən türk dünyasındakı "tarix yazmaq" anlayışı, digər tərəfdən isə bunu yeni nəsillərə çatdırmaq üsulları ilə ortaq tarix şüurunun formalaşdırılması müddəti öyrənilmişdir. Bu müddət tarix üzrə mövcud olan dərs kitabları və tədris proqramları üzərində müşahidələr aparılaraq müəyyənləşdirilmişdir.

1994-cü il 29 sentyabr-1 oktyabr tarixlərində İzmir Dokuz Eylül Universitetində keçirilən "Tarix tədrisi və dərs kitabları" adlı simpoziuma təqdim edilən məruzələr, Türkiyədə tarix tədrisinə tənqidi bir yanaşma baxımından çox qiymətli bir dünyagörüşü ortaya qoymuşdur. Simpoziumda Türkiyədə, bütövlükdə türk dünyasında, xüsusilə də Azərbaycanda tarixin tədrisi ilə əlaqədar təqdim olunmuş məruzələr mühüm əhəmiyyətə malikdir. Simpoziumun materialları Saleh Özbaran tərəfin-

[1] Mahmudov Y.M., Əzizov B.O., Əmirov M.M. Orta ümumi təhsil məktəblərinin "Azərbaycan Tarixi" Proqramları. Azərbaycan Respublikası Təhsil Nazirliyi Tədris Metodikas Mərkəzi nəşrləri. Bakı, 1991, s. 3,5,6; Mahmudov Y.M., Xəlilov R.Z., Ağayev S.A., Aslanov A. Orta ümumi təhsil məktəblərinin 5-11 sinifləri üçün Tarix Proqramları və dərs vəsaiti. Bakı, "Öyrətmən", 1995, s.3, 5-6; Mahmudov Y.M., Xəlilov R.Z., Ağayev S.A., Aslanov A. Orta ümumi təhsil məktəblərinin 5-11 sinifləri üçün Tarix Proqramları və dərs vəsaiti. Bakı, "Öyrətmən", 1997, s. 5; Mahmudov Y.M., Məmmədov İ.M. və digər redaksiya heyəti. Orta ümumi təhsil məktəblərinin 5-11 sinifləri üçün Tarix Proqramları. Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi nəşrləri. 2000, s. 4; Mahmudlu Y.M., Xəlilov R.Z., Ağayev S.A., Qocayev Ə.Ə, Qəmbərov S.M., Məmmədova S.B., Əlişova H.K., Xubyarov B.E. Orta əsrlər tarixi, Ümumi təhsil məktəbləri üçün 7 sinif dərs kitabı, Bakı: Maarif, 2001; Mahmudlu Y.M., Xəlilov R.Z., Ağayev S.A., Qocayev Ə.Ə, Qəmbərov S.M., Məmmədova S.B., Əlişova H.K., Xubyarov B.E. Orta əsrlər tarixi, Ümumi təhsil məktəbləri üçün 8 sinif dərs kitabı, Bakı: Maarif, 2003, s. 77-82; Mahmudlu Y.M. Qocayev Ə.Ə., Xəlilov R. Azərbaycan tarixi, 8 siniflər üçün dərs kitabı. Bakı: Aspoligraf, 2012.

dən "Tarix tədrisi və dərs kitabları" adı ilə nəşr edilmişdir.[1]

Bütün bunları nəzərə alaraq, tədqiqat işinin yazılmasında istifadə olunan ədəbiyyatı bir neçə qrupa ayırmaq mümkündür: təhsilin və tarixin tədrisi ilə əlaqədar aparılan elmi-tədqiqat işləri; ayrı-ayrı müəlliflər tərəfindən təhsil və tarixin öyrənilməsi tarixi ilə əlaqədar yazılmış əsərlər; Türkiyə və Azərbaycanda tədris edilən dərsliklər, tədris planları, dərs proqramları, müəllimlər üçün köməkçi vəsaitlər və s.

Göstərilənləri nəzərə alaraq qeyd etmək olar ki, tədqiq edilən mövzu tarixşünaslıqda mövcud olan boşluqların aradan qaldırılmasında əhəmiyyətli rol oynaya bilər, çünki problem tarixşünaslıq baxımından ayrıca tədqiqat obyekti olmamışdır.

**Tədqiqat işinin mənbə bazası.** Dərsliklər və dərs proqramları dissertasiya mövzusunun öyrənilməsində əsas mənbələr olmuşdur.[2]

---

[1] Özbaran S. Tarih Öğretimi ve Ders Kitapları, Dokuz Eylül Yayınları, İzmir: 1998.

[2] Azərbaycan SSR Maarif Nazirliyi, 1986-87 dərs ilində axşam və qiyabi orta məktəblərdə tarixin tədrisi haqqında, Proqram-Metodikası İdarəsi, Bakı: Azerbaycan SSR Maarif Nazirliyi mətbəəsi, 1987, s. 8; Azərbaycan SSR Maarif Nazirliyi, Səkkizillik və orta məktəb proqramları "Tarix". Bakı: 1979, s. 31, 32; Azərbaycan SSR Maarif Nazirliyi, səkkizillik və orta məktəb proqramları "Tarix". Bakı: Maarif, 1982, s. 3,4,5,7; Azərbaycan SSR Maarif Nazirliyi, səkkizillik və orta məktəb proqramları "Tarix". Bakı: 1972, s. 2, 3, 15, 33, 19; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1967-1968 dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi, Bakı: may 1967, s. 36-41; Azərbaycan SSR Orta ümumtəhsil məktəblərinin 1969-1970 dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi, Bakı: may 1969, s.16-21; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1970-1971 dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi, Bakı: iyun 1970, s. 22-30; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1971-1972 dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi, Bakı: iyun 1971, s. 8-15; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1973-1974-cü dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi, Bakı: may 1973, s. 10-

25; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1974-1975-ci dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi, Bakı: iyun 1974, s. 19-24; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1976-1977-ci dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi, Bakı: avqust 1976, s. 22-29; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1977-1978-ci dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi, Bakı: may 1977, s.11-15; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1979-1980-ci dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi. Bakı: iyun 1979, s. 21-25; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1980-1981-ci dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi, Bakı: iyun 1980, s. 9-12; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1983-1984-cü dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi, Bakı: may 1983, ss. 1-6; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1984-1985-ci dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi, Bakı: may 1984, ss. 4-7; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1985-1986-cı dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi. Bakı: may 1985, ss. 4-10; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1986-1987-ci dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi. Bakı: may 1986, ss. 12-21; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1987-1988-ci dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi, Bakı: may 1987, ss. 9-18; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1988-1989-ci dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi, Bakı: iyun 1988, ss. 10-21; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1989-1990-cı dərs ili üçün Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi, Bakı: iyun 1989, ss. 4-19; Azərbaycan SSR Orta təhsil məktəblərinin 1990-1991-ci dərs ili üçün

Azərbaycan Respublikasının Dövlət Arxivində və Türkiyə Cümhuriyyəti Başbakanlık Osmanlı Arxivində maarif və tarix tədrisi mövzusunda qorunan sənədlər, Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində, Türkiyə Cümhuriyyəti Türk Tarix Qurumunda və Atatürk Araşdırma Mərkəzində mühafizə olunan sənədlər dissertasiya işinin yazılmasında mühüm mənbələr kimi xüsusi əhəmiyyət kəsb edir. Tədqiqata cəlb edilən sənədlər ilk dəfə elmi dövriyəyə gətirilmişdir.

Dissertasiya işində Azərbaycan Respublikasının elm və təhsil haqqına qanunları və Təhsil Nazirliyinin bir sıra sənədləri hüquqi mənbə kimi istifadə edilmişdir.[1]

**Dissertasiya işinin məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi türkdilli ölkələrdə ümumtəhsil məktəblərində tarix dərslərinin tədrisi, onların gənclərdə milli şüurun formalaşdırılmasına təsiri, eyni zamanda Türkiyə və Azərbaycanda ortaq türk tarixinin öyrənilməsi, yazılması, tədrisi və şagirdlərə çatdırılması yollarını araşdırmaqdan ibarətdir. Qarşıya qoyulan bu əsas elmi məqsəd aşağıdakı vəzifələrin həllini şərtləndirir:

- Türklərin günümüzə qədərki təhsil tarixində tarix fənninin yeri, ortaq türk tarixinin öyrənilməsi və tədrisinin yetişməkdə olan gənc nəsildə tarixi şüurun formalaşmasında rolunu aydınlaşdırmaq;
- Türkiyə və Azərbaycanda tətbiq edilən tədris sistemi, tarix fəninin tədrisinə başlanılmasını araşdırıraraq müqayisəli şəkildə tədqiq etmək;
- Türk dövlətlərində strateji məsələ olan tarix dərslərinin tədrisinin əhəmiyyətini aydınlaşdırmaq;
- Türk dövlətlərinin tarix dərsliklərində ortaq türk tarixinin necə əks olunduğunu müəyyən etmək;
- Tarix dərsliklərində türk dünyasının böyük şəxsiyyətlərinə münasi-

---

Tədris Planları, Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsi, Azərbaycan SSR Maarif Nazirliyinin Əmr və Təlimatları Məcmuəsi, Bakı: iyun 1990, ss. 4-25; Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu nəşrləri, Orta ümumi təhsil məktəblərinin Təhil Standartları: Tarix, insan və cəmiyyət, Bakı: 2004, s.9.

[1] “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunu 19 iyun 2009-cu il - http://edu.gov.az/az/page/72/302 pdf; “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu 14 iyun 2016-cı il // http://science.gov.az /uploads pdf/Elm haqqinda Azerbaycan Respublikasinin Qanunu.pdf

bəti öyrənmək;

- Tarixin tədrisində yeni yanaşmalar vasitəsilə türk dünyasının böyük şəxsiyyətləri, dövlətlərinin tarixini gənc nəslə öyrədərkən, bu tarixi şəxsiyyətlərin türkçülüyə, islam dininə və insanlığa verdikləri böyük töhfələri üzə çıxarmaq.

**Dissertasiya işinin metodoloji əsası.** Tədqiqat işi hazırlanarkən tarix elminin ümumi metodoloji prinsipləri-tarixilik, obyektivlik faktlara və baş verən hadisələrə müqayisəli və tənqidi yanaşma və s. elmi prinsiplər tətbiq edilmişdir. Dissertasiya yazılarkən xronologiyanın və problemlərin ardıcıllığına əməl edilmişdir. Problem araşdırılan zaman faktik materialların təhlili, onların arasında əlaqələrin yaradılması, obyektiv nəticələrin çıxarılması diqqət mərkəzində saxlanılmışdır.

**Tedqiqatın elmi yeniliyi**. Dissertasiya işinin mövzusu ilə bağlı bəzi məqamlar elmi ədəbiyyatda öz əksini tapsa da, Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikasının nümunəsində orta məktəblərdə tarix fənninin tədrisi ilk dəfə olaraq təqdim olunan dissertasiya işində kompleks şəkildə araşdırılmışdır:

– Dissertasiya işində ilk dəfə türklərin öz tarixlərini yazmaqda gecikmələri və bu işdə dinamik inkişafın olmadığı elmi şəkildə ortaya qoyulmuş, türk tarixinin yazılması zamanı xarici tarixçilərin təsiri, Osmanlı dövründə tarixşünaslığa fransız tarixçilərinin təsiri, çox zaman fransız tarix dərsliklərinin tərcümə edilib yüz il ərzində məktəblərdə tədris edilməsi sübut edilmişdir. Digər türk respublikalarının tarixşünaslığı isə əsrlər boyu daha çox Rusiya tarixinin kölgəsində qalmışdır.

– Dissertasiyada ortaq türk tarixinin tədrisi ilə gənc nəsildə türkçülük şüurunun inkişaf etdirilməsinin vacib olduğu ətraflı ifadə edilmişdir. İlk dəfə dissertasiyada yer üzündə yaşayan türklərin gənc nəsillərinin ortaq bir tarixi keçmişinin olduğunu aşılamayan dərs proqramlarından və dərsliklərdən istifadə etdiyi aydınlaşdırılmışdır.

– Dissertasiyada ilk dəfə elmi metodlar, müqayisə, təhlil üsulları tətbiq etməklə Türkiyə və Azərbaycanın tarix tədris proqramları, dərs kitabları qarşılıqlı olaraq araşdırılmışdır. Bu təhlil nəticəsində Türkiyədə əsrimizin əvvəlində Türkiyə Cümhuriyyətinin qurulması ilə bağlı olaraq milli özünüdərkin axtarışı nəticəsində milli tarixin tədrisinin tətbiq olunmasına başladığı, Azərbaycanda isə 1991-ci il müstəqillik qazandıqdan sonra Azərbaycan tarixçilərinin sürətli bir şəkildə Azərbaycan xalqının əsil tarixini tədris etdikləri göstərilmişdir. Dissertasiya işində hər iki ölkənin, türk tarixinin tədrisində yaş, müddət və metodlar müqayisə edil-

miş və Azərbaycanın müstəqillik əldə etdikdən sonra tarix fəninin tədrisinin daha çox milli əsaslara dayandığını, Azərbaycan orta məktəb dərsliklərində türklərin tarixinin kompleks şəkildə, qərəzsiz və obyektiv şəkildə əks olunduğu göstərilmişdir.

– İlk dəfə olaraq türk dövlətlərinin təhsil müəssisələrində ortaq türk tarixi şüurunun inkişaf etdirilməsindəki çətinliklər aşkara çıxarılmış, məktəblərdə və digər təhsil müəssisələrində təsirli tarix tədrisini asanlaşdıran strategiyaların inkişaf etdirilməsinə yardım edə bilən tövsiyələr verilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqat işinin təcrübi əhəmiyyəti onunla izah edilə bilər ki, dissertasiyada istifadə olunmuş faktiki materiallardan və əldə edilmiş nəticələrdən universitetlərin tarix fakültələrində "Türk tarixi"nin tədrisinə dair ümumiləşdirilmiş əsərlərinin yazılmasında, "Türk tarixinin tədrisi üsulları" mövzusunda ixtisas kurslarının aparılmasında, Türk dünyasında təhsil və tarix tədrisi mövzularında magistr dissertasiyaları və layihələrinin yazılmasında, tədris və dərs vəsaitlərinin hazırlanmasında, elmi konfrans və seminarların keçirilməsində geniş istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Respublikasının tarixi" şöbəsində yerinə yetirilmiş və 2016-cı il noyabrın 14-də müzakirə olunaraq müdafiəyə məsləhət bilinmişdir (protokol №1) Dissertasiyanın məzmunu müəllifin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda (Bakı, Ankara, Moskva, Nalçik və s.) nəşr edilmiş məqalələrində, yerli, beynəlxalq elmi konfrans (Azərbaycan, Türkiyə, Rusiya) və seminarlardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu**. Dissertasiya işi giriş, 4 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın ***"Giriş"*** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın xronoloji çərçivəsi, öyrənilmə səviyyəsi və mənbə bazası açıqlanır, tədqiqatın məqsəd və vəzifələri müəyyən olunur, elmi yeniliyi əsaslandırılır, nəzəri-metodoloji əsasları, praktiki əhəmiyyəti göstərilir, həmçinin dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

*"Türklərdə tarixin başlanğıcına aid mübahisələr və tarixin yazılması"* adlı birinci fəsilde türk tarixinin başlanması ilə əlaqədar mübahisələr və tarixin yazılması haqqında məsələlər ətraflı araşdırılmışdır. Türklər min illərdir Asiya, Avropa və Afrika qitələrində yaşadıqları tarixdən məlumdur. Buna görə də, türklər tarixi yaradan xalqlar arasında ön sıralardadırlar.[1] Ancaq bu sözləri tarixi yazmaq sahəsində söyləmək çox çətindir. Çünki, türklər yaratdıqları tarixin yazılmasında çox da maraqlı olmamışlar. Buna görə də qədim türklərin özlərinə aid ilk yazılı mənbələri ancaq VII əsrin ortalarından sonra meydana çıxmışdır. Bunun əsas səbəbi türklərdə şifahi tarix ənənəsi ilə izah olunur. Həqiqətən də, türklər arasında şifahi tarixə hər zaman üstünlük verilmişdir. Başqa cür ifadə etsək, türklər öz tarixləri ilə qürur duymuş, başlarına gələnləri danışmış, amma yazmamışlar. Yazmaq türklər üçün heç vaxt danışmaq qədər təsirli, bəlkə də əhəmiyyətli olmamışdır. Türklər tarixi yazmaq, gənc nəsillərə çatdırmaq əvəzinə, yaylaq-qışlaq köçəriyi ənənəsini davam etdirərək hadisələri dastanlaşdırmağa üstünlük verirdilər. Bəlkə də buna görə tarix kitablarımız azdır. Buna baxmayaraq, türk boyları arasında yayılan dastanlar xüsusi əhəmiyyətə malikdir.[2]

Türklərin cahangir millət olduğundan daim bəhs edilsə də, tarix boyu dünya sivilizasiyasına verdiyi böyük töhvələri göstərməkdə tarixçilər çətinlik çəkirlər. Əsrlər boyu türklərin dünya sivilizasiyasına göstərdikləri xidmətlər nəzərə alınmamış, avropalıların "türkləri sarı irqə aid, barbar qövmlər" kimi iddialarına cavab verilməmişdir. Çünki Türkiyədə tarix dərslərinin modern mənada ilk dəfə hərbi məktəblərdə tədris edilməsindən qaynaqlanan fikrə əsasən türk tarixinin günümüzdə belə "hərbi zəfərlər" çərçivəsində başa düşülən milli tarix anlayışı ilə bu iddialara cavab vermək olduqca çətin olmuşdur. İllərdir türk gənclərinin əsl qürur qaynağı olan mühüm mövzulardan biri kimi türk millətinin dünya sivilizasiyasındakı rolunu üzə çıxaran tarixin tədris edilməsindən kənar bir yolun seçilməsi düşündürücüdür.[3]

---

[1] Cezar M. Mufassal Osmanlı Tarihi, c. 1. Ankara: Türk Tarih Kurumu, 2010, s. 5.

[2] Çiçek K. Türk Tarihi Araştırmaları ve Sorunlar Üzerine Bir Değerlendirme, Yeni Türkiye Dergisi Türk Dünyası Özel Sayısı I, sayı 53-54. Ankara: 2013, s.316.

[3] Bax: Memmedov (Karamanlı), H. Azerbaycan'da Basmakalıp Tarih Eğitimi ve Mücadele Yolları, Tarih Eğitimi ve Tarihte "Öteki" Sorunu, 2, Uluslararası Tarih Kongresi Tebliğler, Tarih Vakfı Yurt Yayınları, 2. Baskı, İstan-

Yazı mədəniyyətini inkişaf etdirən xalqlarda yazılı tarix mədəniyyətinin, keçmişin gələcəyə daşınmasında, gənc nəslə ötürülməsi və şüurlu bir cəmiyyətin yaranmasında böyük əhəmiyyətə malik olduğunu qeyd etməliyik. Yazı mədəniyyəti, savadlanma, təhsilin elmi nailiyyətlərə keçmə mərhələsi yeni təhsil ocaqları vasitəsi ilə yeni təhsil sisteminin yaradılmasına səbəb olmuşdur. Yüksək səviyyədə təşkil edilmiş təhsil sistemləri təlimi asanlaşdıran metodlarla bir tərəfdən tarixi keçmişi dəqiq mənbələrdən öyrənmə fürsəti yaradır, digər tərəfdən isə bəşəriyyətə yeni informasiya verməyi mümkün edir.

Tarixin bir elm sahəsi kimi yaranmasına qədərki dövrdə insanlar həyatlarını keçmişlə bağlamaq, keçmişə olan marağını təmin etmək, yaşadıqları coğrafiyada yaşayan insanların keçmişini öyrənmək istəmişdir. Fəsildə Səlcuqlar, Osmanlı və Türkiyə Cumhuriyyəti dövrü, eləcə də Azərbaycan türklərinin çar Rusiyası, Xalq Cümhuriyyəti, sovet dövrü və müstəqillik dövrü tarix yazma ənənələri araşdırılmışdır.

Azərbaycanın milli tarixinin yazılması tarixi zərurətdən yaranmışdır. XIX əsrdə çar Rusiyasının və XX əsrdə Sovet İttifaqının tərkibində olan Azərbaycan xalqının Azərbaycan Xalq Cümhuriyyəti dövrü xaric, öz milli kimlik və tarixini üzə çıxartmaq imkanı əldə edə bilməmişdir. Ancaq SSRİ dağıldıqdan sonra Azərbaycan üçün öz milli və müstəqil dövlətini qurmaq fürsəti yarandı. İnternasional sistemdən ayrılan, qədim tarixi mirasa sahib Azərbaycan xalqının güclü bir dövlət olmağa ehtiyacı vardı. Burada milli tarix, Azərbaycan ziyalılarının milli oyanışı böyük rol oynamışdır.[1]

Dissertasiyanın *“**Türklərdə təhsil tarixi**”* adlı ikinci fəslində türk təhsil tarixi; İslamın qəbulundan əvvəlki və sonrakı dövrün tarixi, Səlcuqlar, Osmanlı, Cümhuriyyət dövründə Türkiyədə təhsil tarixi, Azərbaycanda çar Rusiyasından SSRİ yaranmasına qədər təhsil vasitəsi ilə türkləri ruslaşdırma strategiyaları, iyirimi üç ay mövcud olmuş müstəqil Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsilin milliləşdirməsi cəhdləri və müstəqillik dövründə milli təhsil sisteminin formalaşdırılması, Türkiyə və Azərbaycanın təhsil sistemləri müqayisəli şəkildə araşdırılmışdır.

---

bul: 1998, s. 9-38.

[1] Hacısalihoğlu F. Azerbaycan’da Ulusal Tarih Yazımı, Uluslararası Tarih araştırmaları Dergisi, Prof. Dr. Enver Konukçu Armağanı, Ankara: 2012, s.178.

Təhsilin tarixi insanlığın tarixi qədər qədim olsa da, bir elm sahəsi kimi yenidir. Türklərin yaratdıqları müxtəlif dövlətlərin məişəti və sosial quruluşu türk təhsil tarixini müəyyənləşdirmişdir. Təhsil müəssisələri cəmiyyətin ehtiyacını təmin etmək üçün ictimaiyyəti idarə edənlər və ya ictimai qurumlar, fərdlər tərəfindən yaradılır. Türk təhsil tarixi istər bu dəyişikliklər, istərsə də o zamankı şərtlərin yaratdığı mədəniyyətlərin bir-birinə təsiri nəticəsində zənginləşmişdir. Bunun ən gözəl nümunələri köçəri həyatdan oturaq həyata, şifahi mədəniyyətdən yazılı mədəniyyətə keçərkən yaranmışdır. Tarixən Anadolu türkləri sistemli təhsil baxımından hərbi, dini və dünyəvi təhsilin müxtəlif pillələrindən keçmişdir. Osmanlı dövründə fərqli sistemdə formalaşan təhsilin, respublika dövründən bu günə qədər müasirləşdirilməsinə daim səylər göstərilmişdir.[1]

Dissertasiyanın on yarımfəsildən ibarət olan üçüncü fəsli ***"Türklərdə tarix tədrisi"*** adlanır. Qədim dövrlərdən günümüzə qədər tarixin tədrisini formalaşdıran düşüncə tərzinin arxasında dövrün hakim siyasi və fəlsəfi düşüncə cərəyanlarının dayandığını görürük. Tarixin yazılmasında və tədrisində təyinedici faktor kimi qədim zamanlarda dövlət forması, orta əsrlərdə din, müasir dövrdə xalqçılıq, hal-hazırda isə qloballaşma, multikulturalizm (çoxmədəniyyətlilik), postmodernist yanaşmalar olduğu müşahidə edilməkdədir.

Tarix fənni əvvəllər şagirdləri maarifləndirməklə yanaşı, həm də yüksək sinif sayılan aristokrat ailələrin uşaqlarını idarəçiliyə hazırlamaq, onların mədəni bir insan olmalarını təmin etmək üçün özəl müəllimlər tərəfindən tədris olunurdu. XIX əsrdən etibarən tarix fənni cəmiyyətdə sosiallaşma prosesinin bir vasitəsi olaraq, ortaq bir şəxsiyyət yaratmaq üçün tədris olunmağa başladı. Beləliklə, tarix, həm "insanı özünü mühakimədən xilas olmaq üçün köməyinə ehtiyac duyulan bir anlayış" həm də "dövlətin xidmətində olan bir təlim-təhsil üsulu " kimi yenidən formalaşmışdı.[2] Tarix fənni bu dövrdən daha məqsədəuyğun, daha xronoloji və daha praqmatik şəkildə öyrənilməyə başlanılmışdır.

Hər dövlət öz varlığını qorumaq, müstəqil yaşamaq, varlığını gələcək nəsillərə ötürmək üçün öz vətəndaşlarına tarix fənninin mahiyyətini izah etməli, mənimsətməli və yaymalıdır. Tarix fənninin tədrisində qar-

---

[1] Güven İsmail. Türk Eğitim Tarihi. Ankara: Pegem Akademi Yayını, 2014, s. 1.

[2] Özlem D. Tarih felsefesi Anahtar Kitapları. İstanbul: 1994, s. 112.

şıya qoyulan məqsəd gənc nəsilləri milli şəxsiyyət kimi formalaşdırmaq, onlara öz keçmişlərini, bütün mədəni dəyərlərini öyrətməkdir. Tarixin tədrisində tarixi həqiqətlərə sadiq qalınmalı, bu həqiqətlər milli bir istiqamətdə tədris olunmalıdır. Tarix tədrisinin əhəmiyyətini dərk edən dövlətlər, təhsilin bütün pillələrində milli tarixi tədris etmişdir. Buna görə bu gün dünya xalqlarının kitabxanalarında olan əsərlərin yarısını tarixlə bağlı kitablar təşkil edir. Bu faktlar tarixin millətlərin həyatındakı dəyərinin əhəmiyyətini bir daha təsdiq edir.[1] Dissertasiyanın bu fəslində tarix fənninin tədrisi, Osmanlı və Türkiyənin respublika quruluşu dövründə tarix tədrsinin tarixi və tarixin öyrədilməsinə Fransız təsiri və s. məsələləri təsdiq edən sənədlər tədqiq edilmişdir. Azərbaycanda tarix fənninin tədris tarixi, sovet dövründə tarixin tədrisi və məqsədi ayrı-ayrı yarımfəsillərdə köklü şəkildə araşdırılmış, bəzi təhlillər aparılmışdır.

Dissertasiyanın *"**Türkiyə və Azərbaycanda tarix fənninin tədrisinin bugünkü vəziyyəti**"* adlı on altı yarımfəsildən ibarət olan dördüncü fəslində Türkiyə və Azərbaycanda tarix fənninin tədrisinin bugünkü vəziyyəti, Türkiyədə tarix fənninin tədrisi və tarixi mövzular üzərində aparılan müxtəlif araşdırmalar, araşdırıldığında görürük ki, tarix fənninin ibtidai (ilk okul) və orta məktəbdəki tədrisi hələ də ənənəvi dərs sisteminə bağlı olduğunu, Osmanlı dövlətinin son əsrini formalaşdıran fransız xalqçılıq anlayışı yeni dövlətin quruluşunda olduğu kimi təhsil sisteminin formalaşmasında da öz təsirini göstərdi. Yeni Respublikanı formalaşdıracaq kardların hazırlanması üçün xarici ölkələrə mütəxəssis kimi yetişmək üçün tələbələr göndərilərkən, xarici ölkələrdən də mütəxəssis kadrlar dəvət edilmiş, Qərb və Amerika elmi qaynaqlarından istifadə edilərək təhsil sisteminin formalaşdırılması sürətlə davam etdirilmişdir.

Tədqiqat prosesində Türkiyə və Azərbaycanda tarixin tədrisi öyrənilərkən, dərsliklərdən daha çox tədris proqramları tədqiq olunmuşdur. Xüsusilə Türk təhsil sisteminin proqramı, dərsin məqsədini, məzmununu, qiymətləndirmə üsulları kimi çox ətraflı məlumatları əhatə edir. Onsuz da dərsliklər təhsil proqramlarının nəzərdə tutduğu məzmun, mövzu və məqsədlərin əhatəsindən xaricə çıxamamaqdadır. Təhsil və tədrislə bağlı bütün araşdırmalar zamanı yalnız dərs kitablarını əldə əsas tutaraq tədqiqat aparılması zənnimizcə, düzgün deyildir. Buna görə tədqiqat prosesində tarixin tədris proqramları ayrıca bir yarımfəsildə araşdırıl-

[1] Yıldız H.D. Türk Tarihi ve Liselerimizde Tarih öğretimi Üzerine konuşmalar // Türk Kültürü Dergisi, Cilt 2, Sayı 18, Nisan 1964, s.89-92.

mışdır.

Türk təhsil sistemində tarix fənni və tədris prosesləri, ibtidai sinifdə və orta məktəbdə həftəlik dərs cədvəli nəzərə alınmaqla ayrı-ayrı məktəblər üzrə araşdırılmışdır. Tarix fənninin tədris proqramının mahiyyəti (nə, nə üçün və necə öyrədilir?) hər bir sinif və dərs üzrə, dərsin məqsədi, mövzusu, müddəti ayrı-ayrı araşdırılmış və təhlil edilmişdir. Türkiyə və Azərbaycan təhsil sistemində ibtidai və orta təhsildə tarix fənninin əsas məqsədi, xüsusi yarımfəsillər halında ətraflı şəkildə araşdırılmış, təhlil edilmiş və nəticələr əldə edilmişdir.

Azərbaycan MEA A.A.Bakıxanov adna Tarix İnstitutu və Atatürk Araşdırma Mərkəzinin birgə layihəsi olan "Ortaq türk tarixi"nin yazılması ilə əlaqədar çalışmalar "Tədris proqramında vəsaitlər və türk tarixinə verilən əhəmiyyət" başlığı altında ətraflı tədqiq edilmişdir. Bu yarımfəsildə türk təhsil sistemində öyrədilən tarix dərslərinin hansı siniflərdə, hansı çəkidə və hansı müddətdə öyrədildiyi, dərsin məzmunu haqqında məlumatlarlar cədvəllər şəklində nəzərə çatdırılmışdır. Yuxarı siniflərdə keçirilən tarix dərslərinin siniflər üzrə tədris proqramındakı bölmələri və onlara ayrılan müddətin müqayisəsi aparılmışdır.

Azərbaycanın tarix elmi və tarix təhsili əslində köhnə sovet tarixinin ayrılmaz bir hissəsi olaraq formalaşmış və inkişaf etmişdir. Bu yalnız marksist metodoloji düşünmə tərzi ilə deyil, eyni zamanda kadr hazırlığı, araşdırma mövzularının seçilməsi, elmdəki təşkilatlanma işlərinin bənzərliyi ilə də meydana çıxmışdır. Sovet dövrü tarix dərsliklərində dövlətə və Kommunist Partiyasına sevgi, komminizm ideallarına rəğbət, ateizm, marksizm-leninizmə hörmət, burjua intizamına və ideologiyasına qarşı barışmaz mübarizə əsas mövzu idi. Bu mühitdə tarixin tədrisi də tarix elmi ilə eyni taleyi paylaşmaq məcburiyyətində idi. Tədrisdəki bu məcburi passivlik metodika kitablarının müəlliflərinə də təsir göstərmişdir.[1]

Tarix dərslərinin qarşıya qoyulmuş məqsədlərə nə cür xidmət etməsi, tədrisin müddəti, tarixin yazılması qədər önəm kəsb etməkdədir. Apardığımız təcrübələr, müşahidələrimiz və araşdırma prosesində əldə etdiyimiz məlumatlar tarixin tədrisinə tədqiqatın gedişində daha geniş yer verməyimizi zəruri etmişdir.

Fəsildə həmçinin keçmiş zamanlardan müasir dövrə qədər Azərbay-

---

[1] Memmedov (Karamanlı) H. Azerbaycan'da Basmakalıp Tarih Eğitimi ve Mücadele Yolları, s. 218.

canda tarix fənninin tədrisinin vəziyyəti, eləcə də müstəqil Azərbaycanda tarix fənninin tədrisi, məqsədi, məzmunu ətraflı şərh edilmişdir. *"Türkiyə və Azərbaycanda müqayisəli tarix tədrisi"* adlı yarımfəsildə Azərbaycan və Türkiyə təhsil sistemində tarix tədrisinə ayrılan müddət, türk tarixinin çəkisi xüsusi cədvəl vasitəsilə göstərilmişdir. Türkiyə və Azərbaycan təhsil sistemlərini araşdırarkən görürük ki, Azərbaycanda üzərində yaşadıqları Azərbaycan torpaqlarının tarixini daha erkən çağlardan – 5-ci sinifdən başlayaraq tədris etməyə başlayırlar. Türkiyə təhsil sistemində isə 7- ci sinifdə sosial bilgilər dərsində bir bölmənin ayrılaraq Türk tarixinə daxil edildiyini görürük. Tarix dərslərinin tədrisinin erkən və ya tez başlanılmasının mənfi və müsbət amil olması pedaqoqlar tərəfindən müəyyən olunmalıdır. Şagirdlərin səmərəli mənimsəməsinin hansı yaş dönəmində daha effektli olması barədə yerli araşdırmalarımız mövcud olmadığından başqa ölkələrin öz uşaqlarının təlim çağı üçün çıxardıqları məlumatlar hər ölkə üçün fərqlidir.

Hər iki ölkənin istər dərs saatlarının sayı, istərsə də türk tarixinin tədrisinə ayırdıqları müddət Azərbaycanda qismən artıq olsa da bir-birinə çox yaxındır. Türk dövlətlərinin əsas problemi odur ki, istər tarixin yazılmasında, istərsə də tarix tədrisində istifadə etdikləri bütün strateji üsullar başqa ölkələrə aiddir. Türk birlikləri bu günə qədər əldə etdikləri bilik və təcrübədən bir sintez əmələ gətirərək ortaq bir tarixin yazılması və tədrisini meydana gətirə bilərlər.

Dissertasiyada *"Ortaq Türk tarixinin yaradılması yolunda aparılan tədqiqatlar"* adlı yarımfəsildə türk dövlətlərində ortaq tarix şüurunu formalaşdırmaq istiqamətindəki səylər və mövcud vəziyyətin qısa bir təhlili nəzərdən keçirilir. Türkiyə türkləri ilə Azərbaycan türkləri digər türk respublikaları arasında dil, tarix, mədəniyyət sahələrində bir-birinə daha yaxın xalqlardır. Ortaq mədəniyyətə malik olduğumuz kimi, ortaq tariximiz də olmalıdır. Bu tarix yeni nəslə necə çatdırılmalıdır? "İki dövlət bir millət" olan bu iki ölkənin tarixçiləri bizlərə Türklərin ümumi ortaq tarix yazması haqqında, tarixi şüuru formalaşdırmaq, dərsliklərdə ortaq tarixi əks etdirmək forması barəsində böyük ümidlər vəd edir.

Bu fəsildə tarix dərsliklərində ortaq dövlət və tarixi şəxsiyyətlər, ortaq tarix şüuru, tarixin tədrisində dərsliklərin rolu, türklərin öz tarixlərini dərsliklərdə əks etdirmə üsulları, Türkiyə və Azərbaycan tarix dərsliklərinin araşdırılması ilə əlaqədar bəzi nümunələrə baxılmış, bu nümunələrin tarixi əhəmiyyət daşıyan hissələri araşdırılmış, bu tarixi əhəmiyyətli hadisələrin araşdırılma səviyyəsi təhlil edilmişdir. Məqsədimiz

dərslikləri elmi təhlil etmək deyil, tarixin tədrisi baxımından problemi bir neçə nümunə üzərində nəzərdən keçirməkdir. Belə ki, türk dövlətləri ilə türk dövlət adamlarının münasibətlərinin (Ağqoyunlu-Osmanlı münasibətləri və xüsusilə Otlukbeli müharibəsi kimi) dərs kitablarında əks olunması səviyyəsi və şagirdlərə çatdırılma yolları da bu bölmədə qısa şərh edilmişdir.

Dissertasiyanın ***"Nəticə"*** hissəsində tədqiqatın gedişində əldə olunmuş əsas elmi-nəzəri qənaətlər sistemləşdirilərək ümumiləşdirilir və praktik tövsiyyələr verilir.

***Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdaki məqalələrində öz əksini tapmışdır:***

1. Geliştirilen Bir Seminer Programının Uygulanması ve Sonuçları // Eğitim Yönetimi Dergisi, Ankara, 1995, № 4, s.15-17.
2. Öğretim Programlarının Planlanıp Uygulanması // Çağdaş Eğitim Dergisi, Ankara, 1995, № 216, s. 14-18.
3. Özel Dershaneler ve Türk Eğitim Sisteminin Genel Amaçları // Eğitim Yönetimi Dergisi, Bahar, 1997, № 2, s.155-162.
4. Okulların Yeni İşlevi -Öğrenmeyi Öğretme // Milli Eğitim Dergisi, Ankara, 2000, sayı 145, s. 63-65.
5. Eğitimde Toplam Kalite Yönetimi. Monoqrafiya. Elazığ: ABS, 2002, s. 179.
6. Değerler Eğitimi Bağlamında İlköğretim Derslerinin Programlarında Yer Alan Kazanımların Tespiti ve Değerlendirilmesi / I Ulusal İyilik Sempozyumu Bildirisi-Elazığ MEM yayını. Elazığ: 2009. s. 45-49.
7. Elazığ Eğitim Tarihi. Monoqrafiya. Elazığ: Elazığ MEM yayını, 2009, 281 s.
8. Bir Kamu Hizmeti Olarak Eğitimin Yönetimi ve Örgütlenme // Kamu'da Sosyal Politika Dergisi. Ankara, 2012, №21, s.62-67.
9. Yükseköğretime Geçiş Sorunu ve Çözüm Önerileri // Eğitime Bakış Dergisi, Ankara, 2012, № 23, s.58-60.
10. Eğitim Sistemi Bizi Birlikte Millet Yapabilmeli // Kamu'da Sosyal Politika Dergisi, Ankara: 2013, Temmuz-Ağustos-Eylül, № 24, s.35-40.
11. Kazım Karabekir'in Birinci Dünya Savaşı sırasındaki Eğitim Faaliyetleri // Birinci Dünya müharibəsi və Azərbaycan. Beynəlxalq elmi konfransın materialları. AMEA A.A.Bakıxanov ad.Tarix İnstitutunun Elmi Əsərləri, №48,49,50. Bakı: 2014, s. 282-290.
12. Milli Mücadele Döneminde Kazım Karabekir'in Eğitim Faaliyetleri // I. Dünya Müharibəsi və Azərbaycan. Beynəlxalq konfransın materialları. AMEA Tarix İnstitutunun Elmi Əsərləri. № 48-50. Bakı: 2014. s. 282- 290.
13. Eğitim Tarihimizde, Öğrenme-Öğretme Süreçleri ve Sanatsal yeterliklerin Gelişimine Etkileri // Eğitime Bakış Dergisi, Ankara: 2015, s. 67-75.
14. Harput (Mamuret-ül Aziz) Ermenilerinin Eğitim Kurumları Üzerinden

Misyonerlik Faaliyetleri // Azərbaycan və Şərqi Anadoluda türk-müsləman əhaliyə qarşı soyqırımlar (1914-1920-ci illər)". II beynəlxalq konfransın materialları. Quba şəhəri, 29 Mart-1 aprel 2015-ci il. AMEA-nın Tarix İnstitutunun Elmi Əsərləri. №52, 53, 54, 55. Xüsusi buraxılış. Bakı: 2015, s.458 -464.

15. Osmanlı İnsan Yetiştirme Düzeni ve Türkiye Cumhuriyetinin Kuruluşuna Etkileri //Atatürk Araştırma Merkezi Dergisi. Ankara: 2015, XXIX/87, s. 199-228.
16. Tanımlanamayan, Çıktısı Ölçülemeyen Eğitimin İlkel Bir Denetim Yöntemi; "İnsanı İnsanla Kontrol" Çabası //Eğitime Bakış Dergisi, Ankara, 2015, s.111-119.
17. Ermenilerin Doğu Anadolu ve Azerbaycan'da Türk Müslüman Ahaliye Karşı Yaptıkları 1914-1920 yıllarındaki Soykırımın Türkiye Cumhuriyeti Tarih Ders Kitaplarına Yansıması // Azərbaycan və Şərqi Anadoluda türk-müslüman əhaliyə qarşı soyqırımlar (1914-1920-ci illər). III beynəlxalq konfransın materialları (Şamaxı şəhəri, 7 oktyabr 2016-cı il). AMEA Tarix İnstitutunun Elmi Əsərləri, №56, 57, 58. Xüsusi buraxılış. Bakı: 2016, s.517 -524.
18. Azerbaycan Türkie Eğitim ilişkileri. Bakı: 2016.
19. Egitimli insan kaynaklarımızın XX yüzyılda türk-müsəlman halklarına karşı yapılan soykırımları anlatma və propağanda yönətimlərimiz // XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları. IV beynəlxalq elmi konfransın materialları (Lənkəran şəhəri, 22-27 aprel, 2017). AMEA-nın Tarix İnstitutunun Elmi Əsərləri, №64, 65, 66. Xüsusi Buraxılış. Bakı: 2017, s.467-471.
20. Türkiye Cumhuriyeti okulları, tarih derslerinde Sovyet ihtilali // Azerbaycan Milli Elmler Akademiyasının Xeberleri. İctimai elməer seriyası. Bakı, 2017, №3, s.88-94.
21. Azerbaycan ve Türkiye Cumhuriyetinde Tarih Öğretimi" // Tarih ve Onun Problemleri, №3, 2017 s.271-279.
22. Размышления о русско-советской образовательной практике преподавания истории в независимом Азербайджане // Современная научная мысль. Научный журнал НИИ истории, экономики и права. Москва: НИИ ИЭП, 2017. - №1, 2017, с.17-24
23. Устав об образовании - правовая основа равенства возможностей в образовательной системе // Полиэтнические государства и нормативно-юридические системы народов Кавказа: понятие, разновидности, историческое значение для формирования национальных государств. Материалы VII международной научно-практической конференции. Нальчик-Ростов-на-Дону: 2017, с. 47-52.
24. Советская революция и уроки истории в школах Турецкой Республики // Частные миры Великой русской революции. Сборник научных трудов (на русском и татарском языках). Казань: Институт истории им.Ш.Марджани АН РТ, 2017, с. 407.

***Нихат Фетхи Буйукбаш***

# Проблема изучения истории в средних тюркских школах (на примере Турции и Азербайджана)

## Резюме

Диссертация состоит из введения, четырех глав и списка использованной литературы.

Во введении диссертации обоснованы актуальность темы, рассмотрены ее хронологические рамки и степень изученности, цель исследования, определены задачи и методологические основы исследования, показана научная новизна и научно-практическое значение.

Первая глава диссертации «Написание истории и дискуссионные вопросы об истоках истории тюрков» состоит из семи параграфов. В этой главе анализируется ход общетюркской истории.

Вторая глава диссертации «История образования у тюрков» состоит из десяти параграфов. В ней анализируется история преподавания предмета истории с доисламского периода до нашего времени. Дается сравнительная характеристика преподавания в Турции и других тюркских странах.

В третьей главе «История преподавания у тюрков», состоящей из семи параграфов, анализируется преподавание истории и подход к освещению истории в Турецкой Республике.

В четвертой главе «Преподавание истории в Турецкой Республике и Республике Азербайджан на современном этапе» дается сравнительный анализ преподавания истории в Турецкой Республике и Азербайджанской Республике на современном этапе».

В заключении диссертации обобщены научные и теоретические концепции, полученные в ходе исследования.

*Nihat Fethi Buyukbash*

**The problem of learning history in the middle turquoise school (based on Turkey and Azerbaijan)**

**Summary**

The thesis consists of an introduction, four chapters and a list of used literature.

The introduction contains the urgency of the theme, the degree of investigation of the theme, the methodological bases, scientific novelty, theoretical and practical significance, aims and objectives of the research, and the approbation of the work.

The first chapter – "Writing history and discussion questions about the origins of the history of the Turks" consists of seven paragraphs. In this chapter, the course of general Turkic history is analyzed.

The second chapter is called "The history of education of the Turks" consists of ten paragraphs. It analyzes the history of teaching the subject of history from the pre-Islamic period to our time. Comparative characteristics of teaching in Turkey and other Turkic countries are given.

In the third chapter – "The History of teaching from the Turks", consisting of seven paragraphs, the teaching of history and the approach to the coverage of history in the Turkish Republic are analyzed.

The fourth chapter –"Teaching History in the Republic of Turkey and the Republic of Azerbaijan at the Present Stage", gives a comparative analysis of the teaching of history in the Republic of Turkey and the Republic of Azerbaijan at the present stage".

In the post amble of the dissertation the scientific conclusions analyzed by the author in course of the research work are being expounded and summarized.

Əla növ kağız, formatı 60x84 - 1/16
Tirajı 100 nüsxə.
"Turxan" NPM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ ИМ. А.А.БАКИХАНОВА**

***На правах рукописи***

**НИХАТ БУЙУКБАШ**

# ПРОБЛЕМА ИЗУЧЕНИЯ ИСТОРИИ В СРЕДНИХ ТЮРКСКИХ ШКОЛАХ (НА ПРИМЕРЕ ТУРЦИИ И АЗЕРБАЙДЖАНА)

**Специальность: 5502.01 – Всеобщая история**
**5509.01 – Историография, источниковедение и методы исторического исследования**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по истории**

**БАКУ – 2018**